# MƏHƏRRƏMOV ASİF YUSİF OĞLU



Məhərrəmov Asif Yusif oğlu 26 iyul 1952-ci ildə Ağdam şəhərində doğulmuşdur. 1969-cu ildə Ağdam şəhər 1 saylı orta məktəbini bitirmişdir. Ailələri böyük olduğu üçün həyat onu erkən yaşlarından işləməyə məcbur etmişdir. Ermənilərin 1988-ci ildə başlayan təcavüzünə qarşı Ağdam rayonunun Abdal-Gülablı, Xıdırlı, Əmirallar, Sırxavənd, Bağbanlar, Əhmədavar kəndlərində dayaq dəstələri yaradılırdı. Hərəkat böyüdükcə Asif Qarabağın digər rayonları ilə də sıx əlaqə saxlayırdı. 1990-cı ildə o, Ağdam könüllü özünümüdafiə dəstəsini yaradır və torpaqlarımızın qorunmasında yaxından iştirak edir. 1991-ci il noyabrın 15-də isə dövlət tərəfindən ilk könüllü tabor yaradılır. 1991-ci il dekabrın 31-də Xramort kəndinin azad edilməsində rəşadət göstərir. Xocalı faciəsi zamanı uşaq və qadınların xilas olunmasında böyük şücaət göstərir. A.Məhərrəmov 1992-ci ilin mart ayının 7-də 859 saylı hərbi minaaxtaranlar hissəsinin komandiri təyin edilir. 10 mart 1992-ci ildə məhz onun köməyi nəticəsində Aranzəmin, Pircamal, Dəhraz kəndləri düşməndən azad edilir. 1992-ci il martın 20-də öz dəstəsi ilə kömək məqsədi ilə Füzuli şəhərinə gedir və erməni quldurlarını böyük itkilərə məruz qoyur. A.Məhərrəmov 5 mart 1992-ci ildə hərbi hissə komandiri təyin edilir. Bununla yanaşı ona polkovnik-leytenant rütbəsi verilir. 24 iyun 1992-ci ildə Naxçıvanik yolunda ağır yaralanır. Bir müddət müalicə olunur və yenidən cəbhəyə qayıdır. 1993-cü il fevralın 22-də Şelli uğrunda gedən döyüşlərdə iştirak edir. 1993-cü il oktyabrın 27-də Asifin səhhəti ağırlaşır. O, hərbi hissəni təhvil verib müalicəsini davam etdirmək məcburiyyətində qalır. 1994-cü ildə bu məqsədlə Yaltaya gedən polkovnik-leytenant A.Məhərrəmov həmin il iyulun 1-də vəfat edir. Bakı şəhəri 2-ci Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir qızı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Məhərrəmov Asif Yusif oğluna “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. “General Məhəmməd Əsədov” mükafatına layiq görülmüşdür. Bakı şəhərində adına küçə var.